**Reinteqrasiya** - Şəxsin iqtisadi və sosial əlaqələrinin bərpası yolu ilə yaşadığı cəmiyyətə yenidən inteqrasiyası prosesidir. Azərbaycan Respublikasının digər ölkələrlə imzaladığı readmissiya sazişləri çərçivəsində ölkəmizə readmissiya (geri qəbul) edilən şəxslərin müvafiq ehtiyacları nəzərə alınmaqla reinteqrasiyası da bu prosesin növlərindən biridir.

Bu istiqamətdə həm Azərbaycan Respublikası Hökuməti tərəfindən, həm də beynəlxalq qurumlarla birgə fəaliyyət həyata keçirilir:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2016-cı il tarixli tapşırığı ilə aidiyyəti dövlət qurumlarının nümayəndələrinin təmsil olunduğu Reinteqrasiya İşçi Qrupu yaradılıb. İşçi qrupu çərçivəsində readmissiya edilmiş şəxslərin üzləşdikləri çətinlik və problemlərin operativ həlli, eləcə də sözügedən şəxslərin cəmiyyətə reinteqrasiyası işinin səmərəli təşkili həyata keçirilir. Ümumilikdə 2017-2022-ci illər ərzində 398 şəxsə müxtəlif yardımlar göstərilib.

2. Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzlə (MSİBM) Dövlət Miqrasiya Xidmətinin birgə "Geri qayıdan Azərbaycan vətəndaşlarına reinteqrasiya dəstəyi" (RESTART) layihəsi çərçivəsində ümumilikdə 87 nəfərə yardım göstərilib. RESTART layihəsinin reinteqrasiya üzrə mütəxəssisləri (mentorlar) vasitəsilə müvəqqəti yaşayışın, peşə, təhsil, dil kurslarının təmini, ödənilmiş səhiyyə xidmətləri, o cümlədən evdə reabilitasiya dəstəyi, şəxsiyyəti təsdiq edən sənədlərin, dərmanların, işsizlik, məşğulluq əlillik və digər sosial statusların alınmasında dəstəyin verilməsi və digər zəruri pullu xidmətlərin göstərilməsi (məs., hüquqi yardım və s.) təmin edilib.

